# Görkəmli ədəbiyyat adamları və ictimai xadimlər Hidayət haqqında

...Torpaq təəssübü, xalqımızın mənəviyyatını əks etdirən can yanğısı, mərdliklə namərdliyin, düzlüklə əyriliyin əlbəyaxa vuruşu getdikcə onun yaradıcılığında elə təbii, eyni zamanda elə qabarıq canlanır ki, hətta şeirin janrlarına sığmır, nəsrə dönür, kəsərli publisistikaya çevrilir...

Hidayət həm bir vətəndaş, həm də bir şair kimi sözün düzünü deməyə çalışır və buna nail olur.

**Bəxtiyar VAHABZADƏ**
*Xalq şairi*

Mübaliğəsiz demək olar ki, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı Hidayət müəllimin şah əsəridir. Bununla fəxr etmək olar.

**Nəbi XƏZRİ**
*Xalq şairi*

...Həmin dövrdə Ermənistanda və ermənilər arasında yaşamaq bir fədakarlıq idisə, Hidayətin (təbii ki, adlarını sadalamadığım ziyalılarla birlikdə) gördüyü işləri (hətta icazə verilmiş olsa belə) görmək ikiqat fədakarlıq idi... Millətçi ermənilər hər vəchlə çalışırdılar ki, İrəvan ədəbi-elmi mühiti istənilən vaxt səviyyəsiz olsun. Bütün təzyiqlərə baxmayaraq, gizli mübarizədə dözüm, iradə məqsədyönlülük göstərən ziyalıların sayəsində İrəvan ədəbi-elmi mühiti var olaraq qaldı. Heç şübhəsiz, bu xeyirxah işdə on altı il İrəvan Dövlət Teatrının direktoru, daha sonra Yazıçılar İttifaqının Azərbaycan bölməsinin rəhbəri vəzifəsində işləmiş Hidayətin xüsusi xidmətləri olmuşdur.

**ANAR**
*Xalq yazıçısı*

Çaylar zirvələrdən baş alır, qayaların bağrından keçir, dəryalara qovuşur.

Yollar isə, əksinə, düzlərdən başlanıb, əlçatmaz, ünyetməz zirvələrə doğru üz tutur.

Yazan, yaradan ilham və qələm sahibinin - şair dostumuz Hidayətin də ömür yolunu uca zirvələrə qalxan çəhlimə - cığıra bənzətmək olar.

**Yaşar QARAYEV**
*AMEA-nın müxbir üzvü*

Hidayət indi Çili şairi Pablo Nerudanın, qırğız yazıçısı Çingiz Aytmatovun, görkəmli diplomat rəssam Hafiz Paşayevin (istedadla yaratdığı rəsm əsərlərini hamıdan gizlətsə də!) estafetini davam etdirir. Gərək ki, Aligeri Dante də ("İlahi komediya"nın müəllifini deyirəm) qədim Romanın səlahiyyətli səfiri olubdur.

**Nəriman HƏSƏNZADƏ**
*Xalq şairi*

İki Hidayət tanıyıram: Birisi geniş kütlənin yaxşı tanıdığı dövlət məmuru, Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə Dövlət müşaviri Hidayət Orucov, o birisi isə poetik nəfəsinin hərarəti ilə seçilən Hidayət. Təxəllüssüz, familiyasız, heçnəsiz, eləcə Hidayət.

**Məmməd ASLAN**



...Vətəndaşlıq Hidayətin çoxcəhətli yaradıcılığının cövhəri, mahiyyətidir. O, yeni mərhələdə Azərbaycanda dərin ictimai məzmunlu vətəndaş poeziyasının, yüksək vətəndaşlıq ruhuna malik olan publisistikanın və səhnəyə həyat nəfəsi bəxş edən dramaturgiyanın əsas yaradıcılarından biri kimi böyük nüfuz qazanmışdır. Ciddi vətəndaşlıq mövqeyi və məsuliyyət şair, publisist və dramaturq Hidayəti bütün yönləri ilə tam şəkildə mənalandırır.

**İsa HƏBİBBƏYLİ**
*Akademik*

...Bütövlükdə, Hidayət müəllimin ziyalı, şair, dövlət xadimi kimi fəaliyyəti vətənə, millətə, dövlətə şərəfli xidmət, şəxsiyyətin bütövlüyü nümunəsidir...

**Kamal ABDULLA**
*Akademik*

...Bir şəxsiyyət kimi səmimi, mərd, sözünü açıq söyləməkdən çəkinməyən, verdiyi vədləri tamamilə və vaxtında yerinə yetirməyə çalışan bu və digər hadisəyə özünəməxsus münasibəti olan, öz mövqeyini sonuna qədər müdafiə edən, bəzən də öz mövqeyindən həddindən artıq inadkarlıq göstərərək dönmək istəməyən, hər bir ciddi məsələyə vətəndaşlıq mövqeyindən yanaşan, ətrafındakı insanlar içərisində ciddiliyi ilə seçilən, çox nadir hallarda zarafat edən, şit və yersiz zarafatları isə heç sevməyən, hər cür zəhmətə qatlanan...

**Yunis MƏMMƏDLİ**
*Süleyman Dəmirəl Universitetinin professoru*

Onu hamıdan yaxşı tanıyır, ona hamıdan çox inanırdım. İnanırdım ki, bərk ayaqda Cəhənnəm dibçəyinə rast gəlsə də, istəyindən döhmədən, içində xoş ətirli Cənnət çiçəyi cücərdəcək.

**İsrafil MƏMMƏDOV**

Xalqlarımızın layiqli və görkəmli oğullarının şəxsi dostluqları hamıya məlumdur. M.F.Axundov və Akaki Seretelinin dostluq münasibətlərini qeyd etmək yerinə düşərdi. Bu ənənə xalqlarımızın ən ağır dövrlərində də davam etdirilmişdir. Səməd Vurğunla Georgi Leonidze, Hidayət Orucovla Quram Pançikidze bu gözəl ənənənin gözəl davamçılarıdır".

**Eduard ŞEVARDNADZE**

Hidayətə sonsuz sevgimdən danışa bilmirəm, çünki əsl sevgi şərh olunmur. Onu da ayırd edə bilmirəm ki, Hidayətin poeziyasını çox sevirəm, yoxsa, özünü? Mənə elə gəlir, Hidayətin poeziyası elə onun özüdür...

**Quram PANÇİKİDZE**

Yüksək yaradıcılıq qabiliyyətinə, hərarətli dünyagörüşünə, intellektual və mədəni səviyyəsinə, ensiklopedik biliyinə, zəngin mənəvi və insani keyfiyyətlərinə görə fərqlənən Hidayət, sözün əsl mənasında, xalqımız, millətimiz, müstəqil dövlətimiz uğrunda alovlanıb yanan Böyük Ziyalıdır.

**Abuzər XƏLƏFOV**
*Professor*

...Mən əminəm ki, Hidayətin böyük yazıçı, publisist, ictimai xadim istedadı onun siyasətçi, dövlət xadimi kimi fəaliyyəti üçün həmişə tükənməz mənbə olacaq, ona ilham verəcək, yeni poetik "Avtoportret"lər yazdıracaqdır. Və ona da əminəm ki, biz o yerlərə qayıdacağıq, çünki bir vaxtlar ədəbiyyatçı idik, indi həm də siyasətçiyik...

**Nizami CƏFƏROV**
*Akademik*

Vəzifə sahibi olmaq, düzlüklə, vicdanla dövlətinə, xalqına xidmət eləmək insanın ucalığı, iftixar yeridir... Hidayət vəzifəyə görə ucalan yox, vəzifələri boyu bərabəri ucaldan adamlardandır.

**Sabir RÜSTƏMXANLI**
*Xalq şairi*

Hidayətin xalqlar dostluğundan, sülhdən, vətən və insan taleyindən, məhəbbətdən danışan bir sıra orijinal, qüvvətli şeirləri belə düşünməyə əsas verir ki, o, bu çətin vəzifəni yerinə yetirə bilən sənətkarlar sırasında öz yerini tuta bilər. Kitabının adı da bunu vəd edir: "Bir az gözləyin məni"...

**Orxan PAMUK**
*Nobel mükafatı laureatı, yazıçı*

Xəlqilik və səmimilik Hidayətin şeirlərinin, nəsr və dram əsərlərinin dilinin canında və qanındadır.

**Ağamusa AXUNDOV**
*Akademik*

Doğma dilimizə H.Biçer-Stounun "Tom dayının koması", U.Şekspirin "Sonu yaxşı bitən iş yaxşıdır" kimi əsərlərinin mahir tərcümələri, orijinalın əsas məqamlarını əks etməklə yanaşı, ...Şekspiri yetərincə yüksək səviyyədə tərcümə etməyi bacaran bir insan örnəyidir.

**Azad MİRZƏCANZADƏ**
*Akademik*